Azərbaycan.- 2021.- 29 aprel. S. 5.

# Paşinyan diktatura rejimini daha da gücləndirir

**Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdə, iqtidar və müxalifət arasında münasibətlər tam antoqonist xarakter almaqdadır. Tərəflərin bir-birilərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha da kritik həddə çatdırıb.**

44 gün davam edən Vətən müharibəsinin nəticələrini əsas götürən müxalifət etiraz aksiyaları təşkil edərək Nikol Paşinyanı bu yolla hakimiyyətdən uzaqlaşmağa vadar edəcəyini düşünsə də, hadisələrin sonrakı gedişi bu qüvvələrin yanıldığını göstərdi. Müxalifət partiyalarının birləşdiyi "Vətənin xilası uğrunda hərəkat" çoxsaylı etiraz aksiyaları təşkil etsə də, cəmiyyətdən lazımi dəstək ala bilmədi.

Müxalifət müharibədə Ermənistanın məğlubiyyətinin əsas səbəbkarı qismində Nikol Paşinyanı təqdim edərək, cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışsa da, bu istiqamətdə fiaskoya uğradı. Hakimiyyətdən narazı olan erməni cəmiyyətində müxalifətə də heç bir inamın olmadığı, bu düşərgəyə etimad göstərilmədiyi üzə çıxdı.

Bununla belə, keçmiş hərbi xunta və onun liderlərindən olan sabiq prezident Robert Koçaryan hakimiyyətə iddialıdırlar. Hazırda sabiq prezident Paşinyanın əsas rəqibi hesab olunur. Lakin təhlillər onun da Ermənistan əhalisi tərəfindən dəstəklənmədiyini göstərir. Xüsusən də Koçaryanın revanşist mövqeyi, Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasının tərəfdarı olması, 1999-cu ildə Ermənistan parlamentində baş verən terror aktında, 2008-ci ilin martında əhaliyə qarşı yol verilən qırğında, çoxsaylı korrupsiya və digər cinayətlərdə əli olması fonunda cəmiyyətin mütləq əksəriyyəti ona nifrət edir. Erməni mediası isə onu satqınçılıqda, ölkəni vassala çevirməkdə ittiham edir.

Etiraz aksiyaları ilə müxalifət tərəfindən hakimiyyətdən devrilməsinin mümkünsüzlüyünü görən Nikol Paşinyan isə cəmiyyətin hələ də onu dəstəklədiyini siyasi opponentlərinə nümayiş etdirmək məqsədilə müxtəlif gedişlər edir, yüksək vədlər verir. Lakin "Erməni Konstruktiv" partiyasının rəhbəri Andrias Qukasyan bildirir ki, qarşıdakı seçkilərdə həm Robert Koçaryan, həm də Nikol Paşinyan çox həssas namizədlərdir və ciddi alternativ halında onlar seçkilərin ikinci mərhələsində mütləq məğlub olacaqlar: "Robert Koçaryanın fikri anlaşılandır. Bu, yalnız seçkiqabağı təbliğatla əlaqədardır, o, tərəfdarlarını təşviq etməlidir. Ancaq siyasi reallıq var və bu odur ki, həm Nikol Paşinyan, həm də Robert Koçaryan yüksək mənfi reytinqə sahibdirlər".

O bildirib ki, qarşıdakı parlament seçkiləri bir mərhələdə keçirilə bilməz: "Əlbəttə, pozuntular və saxtakarlıqlar olmasa, seçkilər iki mərhələdə keçirilə bilər. Bu gün heç bir siyasi qüvvə seçicilərin səslərinin yarısından artığını toplaya bilməz. Bunu sorğular göstərir. Beləliklə, hazırkı vəziyyətə əsasən söyləmək olar ki, seçkilərin ikinci mərhələsi qaçılmazdır".

Müxalif "Vahid Ermənistan" Partiyasının lideri, hüquqşünas Artur Kazinyan isə hesab edir ki, indi əsas diqqət Paşinyanın hələ də baş nazir vəzifəsini icra etməsinə yönəldilməlidir: "Nikol Paşinyan istefa verib, müvafiq olaraq o, artıq Ermənistanın baş naziri deyil. Yaranmış vəziyyətdə baş nazirin müavini Tiqran Avinyan baş nazirin öz səlahiyyətlərini yerinə yetirməsinin mümkünsüzlüyünü təsbit etməsi və səlahiyyətlərini müvəqqəti olaraq öz üzərinə götürməsi üçün hökumətin növbədənkənar iclasını çağırmalıdır".

Artur Kazinyan Milli Təhlükəsizlik Xidmətini Paşinyanın dövlət mühafizəsini dayandırmağa, hökumətin işlər idarəsinin rəhbərini isə onun kabinetinin və ailəsi ilə birlikdə yaşadığı hökumət iqamətgahının boşaldılması üçün tədbirlər görməyə çağırıb.

"Maariflənmiş Ermənistan" Partiyasından olan deputat Taron Simonyan da düşünür ki, Nikol Paşinyan istefada olduğu halda baş nazir səlahiyyətlərini yerinə yetirə bilməz: "Qanunda dəqiq təsbit olunmayıb. Və əlbəttə ki, kim necə istəyir, elə də yozur. Amma əgər məsələyə peşəkarcasına yanaşsaq, insan istefa verirsə, o, bundan əvvəlki funksiyaları daha yerinə yetirməməlidir. İstefa səbəbi bundadır".

Müxalifət hesab edir ki, Paşinyan bununla diktatura rejimini daha da gücləndirir. Paşinyan isə bütün bunları əhəmiyyətsiz hesab edir. Bununla belə, müxalifətin öz mövqeyində israr etməsi seçkiqabağı ziddiyyəti dərinləşdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***